**T.F.SƏLİMLİ**
*baş müəllim*
*e-mail: temkineselimli@gmail.com*

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**:10.62021/0026-0028.2024.2.253**

# FRANSIZ DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ İSTİFADƏ EDİLƏN QRAMMATİK TAPŞIRIQLAR

***Xülasə.*** *Araşdırmada fransız dilinin xarici dil kimi tədrisində müxtəlif tapşırıqların istifadəolunma məqsədi və yararlılığı əks olunur. Burada kifayət qədər, sadə tapşırıqlardan başlayıb daha mürəkkəb tapşırıq növlərinə yer verilir. Əlbəttə ki, tapşırıqları tərtib edərkən dilöyrənənlərin səviyyələri mütləq nəzərə alınmalıdır. Qrammatik biliklərin tədrisində dilöyrənənlərin ana dildəki qrammatik bilik səviyyələri də mütləq şəkildə diqqətdə saxlanmalıdır. Fransız dilinin qrammatikası və Azərbaycan dilinin qrammatikası arasında fərqlər mövcuddur, qrammatika sahəsindəki bu fərqliliklər diqqətdə saxlanılmaqla dilöyrənənlər xarici dilləri ana dilləri ilə müqayisəli şəkildə mənimsəyirlər. Xarici dillərin tədrisində müqayisəli təhlil aparılması tədris prosesini asanlaşdırır və sürətləndirir. Qrammatik təhlilin aparılması cümlələrin düzgün tərcümə olunmasına, düzgün mənanın başa düşülməsinə imkan verir.*

***Açar sözlər:*** *qrammatik çalışmalar, mahnı dinləmə, çoxseçimli tapşırıqlar, əlaqəli tapşırıqlar*

Fransız dilinin xarici dil kimi tədrisində qrammatikanın öyrənilməsində, dilöyrənənlərin dil, bilik və bacarıqlara yiyələnmələrində tapşırıqlar mühüm rola malikdir. Qrammatik tapşırıqlar dilöyrənənlərin yazılı və şifahi nitqinin formalaşmasına imkan verir. Onların vərdiş, səriştə bacarıqlarını inkişaf etdirir və dilöyrənmə prosesini asanlaşdırır. Tapşırıq və çalışmaların əsas xüsusiyyəti qarşıya qoyulmuş məqsədə çatmaqdır. Dilöyrənənlər əldə etdikləri biliklər çərçivəsində fəaliyyət növlərini reallaşdırırlar. Məqsədyönlü təşkil edilmiş fəaliyyətlər sayəsində dilöyrənənlər xarici dildə bilik və bacarıqlar əldə etmiş olurlar. Tapşırıqlar yaradıcı xarakter daşımalıdır. Dilöyrənənlər mənimsədikləri linqvistik biliklərdən istifadə edərək, onlar öz sərbəst fikirlərini ifadə edə bilir, dialoji və monoloji nitq vərdişləri əldə edirlər.

Qrammatik qaydaların tədrisinə xidmət edən tapşırıq növləri müxtəlif situasiyalar daxilində dilöyrənənlərə təqdim edilə bilər. Bu tapşırıqlarda başlıca məqsəd zaman uzlaşmalarını düzgün işlətmək və boşluqları düzgün əvəzliklərlə tamamlamaq vərdişi formalaşdırmaqdır. Qrammatik tapşırıqların hər birinin yerinə yetirilməsi müəyyən konkret, dəqiq məqsədlərə xidmət edir. Burada başlıca məqsəd dilöyrənənlərin xarici dil vərdiş və səriştələri əldə etmələridir. Müəyyən tapşırıq və çalışmaların əldə edilmiş qrammatik biliklər çərçivəsində tətbiq edilməsi dil bacarıqlarının yaranmasına, formalaşmasına və xarici dillərin sistemli şəkildə tədrisinə xidmət edir [1, s. 23].

Natamam mətnə digər bir nümunə göstərmək olar. Misal üçün, mahnı dinləmə ilə əlaqəli olan tapşırıqlar. Mahnılar da öz növbəsində xarici dillərin öyrənilməsində, tədrisində autentik materiallar kimi mühüm rol oynayır. Leksikanın, qrammatikanın üzərində işləmək üçün lüğət ehtiyatının zənginləşməsində, eyni zamanda dilöyrənənlərin anlama və yazı bacarıqlarının formalaşmasında linqvistik biliklərin təkmilləşməsində mahnıların dinlənməsinə üstünlük verilir. Bizim fikrimizcə, mahnılar dillərin tədrisində, daha çox lüğət ehtiyatının zənginləşməsinə, dilöyrənənlərin söz və ifadələri daha mükəmməl mənimsəmələrinə kömək edir. Dərslərin maraqsız keçməsinin qarşısını almaq üçün əlavə tapşırıqlar tərtib etmək lazımdır. Mahnı dinləməklə bərabər tələbələr şifahi anlama bacarıqlarını inkişaf etdirirlər. Mahnıda buraxılan söz-

ləri tamamlamaq nitq fəaliyyətini inkişaf etdirir. Fransız dilinin xarici dil kimi tədrisində mahnı dinləmə fəaliyyətlərinin təşkili, tələbələrdə mədəni dəyərlərin formalaşmasına imkan verir. Auditoriya mühitində reallaşan fəaliyyət növləri dərsin məzmununa uyğun şəkildə təşkil edilməlidir. Yaradıcı xarakterli tapşırıq növləri xarici dil biliklərinin əldə edilməsində əsasən, eşidib-anlama vərdişlərinin formalaşmasında mühüm rol oynayır. Dinləmə nəticəsində yeni sözlər, ifadələr, ümumilikdə desək leksik, qrammatik biliklər izah olunur. Bütün bunlar tapşırıqların yerinə yetirilməsi prosesinə müsbət təsir göstərir. Dilöyrənənlər bilmədikləri, ilk dəfə eşitdikləri yeni sözlərin mənasını lüğətlərdən istifadə etməklə öyrənirlər. Bununla yanaşı, qeyd etmək lazımdır ki, feillərin təsrif olunmuş formalarına, sözlərin cümlə daxilində işlənmə xüsusiyyətlərinə bələd olmadan mənanın düzgün başa düşülməsi mümkün deyil. Bunun nəticəsində qrammatik struktur və quruluşlar tapşırıqların köməyilə aydınlaşdırılır. Mənanın düzgün başa düşülməsi və dinləmə materiallarının təhlil edilməsi üçün xarici dildə mövcud olan bütün qrammatik formaları, qaydaları, dil normalarını bilmək daha məqsədəuyğundur. Metodik dərs vəsaitlərinin çoxunda qrammatik qayda və qanunların, strukturların, quruluşların tədrisinə imkan verən tapşırıqların müxtəlif növləri mövcuddur. Tapşırıq və çalışmalar qrammatik bacarıqların yaranmasında, formalaşmasında və təkmilləşməsində mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, qrammatik tapşırıq növləri müxtəlif dil bacarıq və vərdişlərinin yaranmasına və inkişafına xidmət edirlər. Anlama vərdişini, ifadəetmə vərdişini formalaşdıran, inkişaf etdirən qrammatik tapşırıq növləri ilə yanaşı leksik bilik və bacarıqların yaranmasına xidmət edən çalışma və tapşırıq tipləri mövcuddur. Çoxseçimli tapşırıq növləri bu sahədə xüsusilə fərqləndirilir. Bu tapşırıqlar dilöyrənənlərin ümumi bilik səviyyələrinin qiymətləndirilməsində daha effektiv vasitələrdir. Verilmiş tapşırığı yerinə yetirərkən dilöyrənənlər təklif olunan cavablar arasından düzgün olan cavabı seçib təsdiq etməlidir. Çoxseçimli tapşırıqlar anlama bacarıqlarının yoxlanmasında və leksik biliklərin qiymətləndirilməsində mühüm rola malikdirlər (sinonimlər üzərində iş, naməlum sözü tapmaq və s.). Bu tapşırıq növləri iki, üç cavabdan və ya "düz" (Vrai), "səhv" (faux), "razı" (Oui), "əks" (Non) seçimlərindən ibarətdir [3, s. 52].

Çoxseçimli tapşırıqlar müxtəlif formalarda təqdim oluna bilər [5, s. 3]. Məsələn: 1) tək düzgün cavab şəklində; 2) çoxsaylı cavablar şəklində; 3) bütün cavablarda doğruluq var, amma kiçik bir nüans səhv cavabı tapmağa imkan verir [5, s. 4]. Burada qrammatik biliklər nəzərə alınmasa da dilöyrənənlərin dünyagörüşü bu tapşırıqların yerinə yetirilməsində mühüm rol oynayır. Məsələn: a) boşluğu tamamlama [5, s. 6]. b) eyni qrupa aid sözləri sıralamaq [5, s.4].

Bu tapşırıq yazılı anlama fəaliyyətidir. Tapşırığı yerinə yetirmək üçün fransız dilində tədris olunan ölkəşünaslıq biliklərini bilmək lazımdır. Düzgün cavablar bəzən şans nəticəsində əldə edilə bilər. Ümumiyyətlə, bu tip tapşırıqlar dilin müxtəlif sahələri üzrə bilikləri yoxlamağa imkan verir. Burada qrammatik bilikləri yoxlamaq daha effektivdir.

Struktur tapşırıq növlərinə nominal vahidlərin əvəzlənməsinə əsaslanan tapşırıqları, oyun tapşırıqlarını, qarşılıqlı şəkildə iki hissəyə bölünmüş cümlələrin tamamlanmasına xidmət edən tapşırıqları, kommunikativ xüsusiyyətli tapşırıqları və s. tapşırıq növlərini aid etmək olar. Sözönülərin, zamanların işlənməsi əsasında təşkil edilən tapşırıq növlərini də struktur çalışmalara aid edilir.

Əvəzetmə tapşırıqları qrammatikanın və qrammatik strukturların öyrənilməsində mühüm rol oynayırlar. Bu tapşırıqlar sayəsində dilöyrənənlər avtomatik dil vərdişləri əldə edirlər. Struktur tapşırıqların əsas tərkib hissələrindən birini təşkil edən bu tapşırıqlar verilmiş konstruksiya modelləri əsasında yeni cümlələrin qurulmasını və yeni ifadələrin dilöyrənənlər tərəfindən işlənməsinə imkan verir. Əvəzetmələr leksik və qrammatik olmaqla fərqləndirilir. Bu tapşırıqlar təkrarlardan xilas olmağa, əsas fikrin digər terminlərlə ifadə olunmasına xidmət edir. Nümunə üçün, *"Pierre a réussi son bac haut la main, Pierre a obtenu d'excellentes notes!" 1. Pierre a réussi son bac haut la main, il a obtenu d'excellentes notes! 2. Pierre a réussi son bac haut la main, le jeune homme a obtenu d'excellentes notes!* [4].

Leksik əvəzləmə tapşırıqlarında əsasən nominal vahidlərə məxsus təkrarlardan (sinonimlərdən) qaçılır. Burada daha çox əvəzliklərdən istifadə olunmaqla əvəzləmələr reallaşdırılır. Bunlar qrammatik sözlərin, əvəzliklərin əvəzlənməsi adlandırılır. Əvəzləmə tapşırıqları öyrənmə prosesində söz ehtiyatının zənginləşməsi, xarici dildə lüğət biliklərinin əldə edilməsini asanlaşdırır.

Əlaqəli tapşırıqlar, həmçinin cütləşmə tapşırıqları da adlandırılır. Yazılı anlama fəaliyyətinin formalaşmasında, təkmilləşməsində mühüm yer tutur. Bu tip tapşırıqları yerinə yetirərkən sintaktik və lüğət biliyinə yiyələnmək lazımdır. İki sırada verilmiş sözlərin cərgəsindən uyğun olan cüt sözlər dilöyrənən tərəfindən qarşılaşdırılıb qeyd olunur. Bu tapşırıq növlərini yerinə yetirmək çətin deyil, amma kifayət qədər effektivdir. Mətndən götürülərək iki hissəyə bölünmüş cümlələr arasında semantik, morfoloji və sintaktik əlaqələr nəzərə alınır [2, s. 12].

Dilöyrənənlər cümləni tamamlamaq, bərpa etmək üçün hər iki cərgədə olan elementlərin hər birini təhlil edir və birinci cərgənin elementlərini, ikinci cərgənin elementlərinə uyğunlaşdırmağa cəhd edir. İkinci halda, idiomatik ifadələr seçilir və onların mənaları müəyyənləşdirilir. Biz güman edirik ki, dilöyrənənlər bütün ifadələrin mənasını bilmir, amma sözləri əlaqələndirməklə, nümunələrin köməyilə orta neytral sözlərin mənasını anlamağa çalışırlar. Yoxlamanın nəticəsi dilöyrənənlərin seçimindən asılıdır.

Düzgün cavabları seçərkən sütunlardakı sözlərin mənasına diqqət yetirmək və onları qarışdırmamağa səy göstərmək lazımdır. Tapşırıq həm qrammatikanın öyrənilməsinə, həm də lüğət ehtiyatının inkişafına, anlamaya imkan verir. Tapşırıqlar dilöyrənənlərin dil biliklərini və bacarıqlarını daha yaxşı qavramalarına imkan verir.

**İşin elmi nəticəsi:** Fransız dilinin xarici dil kimi tədrisində istifadə olunan qrammatik tapşırıq növlərini yerinə yetirərkən dilöyrənənlər qrammatik formaları mənimsəməklə düzgün ifadələri, sözləri şifahi nitqdə işlədə bilmə bacarığı əldə etmiş olurlar. Çalışmaları yerinə yetirməklə qrammatik bacarıqlar avtomatik səriştə, vərdiş halına çevrilir. Dilöyrənənlər düzgün, dəqiq, səlis danışıq və yazı bacarıqlarını təlim prosesi çərçivəsində reallaşdırırlar. Müəllim tərəfindən təqdim edilmiş müxtəlif situasiyalar daxilində biliklərin həyata keçirilməsi qiymətləndirmə prosesinə imkan verir. Tapşırıqların səhvsiz, mütəmadi olaraq yerinə yetirilməsi tələbə və şagirdlərin dil qabiliyyətlərinin və bacarıqlarının aşkarlanmasına imkan verir. Eyni zamanda yeni biliklərin tətbiqinə şərait yaradır. Ana dilində verilmiş cümlələrin tərcüməsinə, mürəkkəb cümlələrin təhlilinə, vasitəsiz və vasitəli nitqə çevrilməyə, müxtəlif situasiyalara uyğun yaradıcı fəaliyyətlərə əsaslanan və s. müxtəlif qrammatik tapşırıq növləri dil sinfi mühitində həyata keçirilir və dil öyrənmə prosesini sürətləndirir. Dilöyrənənlərin özlərinə inamı və xarici dilə maraqlarını artırır.

**İşin elmi yeniliyi:** Dilöyrənənlərin dörd dil bacarıqlarının (anlama, danışma, yazı və oxu) formalaşdırılması və vərdişlərə yiyələnmələri məqsədilə tapşırıqların növləri araşdırılmışdır.

**İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi:** Fransız dilinin xarici dil kimi tədrisində dilöyrənənlərin dil bacarıq və səriştələrinin əldə edilməsində tapşırıq və çalışmalar mühüm rol oynayır. Qrammatikanın öyrədilməsinə xidmət edən çalışmalar toplusu düzgün yazılı və şifahi nitqi formalaşdırır. Məqsədli qrammatik tapşırıqların istifadə edilməsi dil öyrənmə prosesini sürətləndirir və asanlaşdırır.

**Ədəbiyyat**


1. Бурина, Е.В. Сборник грамматических упражнений по французскому языку. Учебное пособие / Е.В.Бурина, −Москва:Изд-во Рос.экон.акад., − 2006, − 128 с.
2. Girardet, J., Pécheur J. Campus méthode de français 2, // CLE International, − 2018, − Paris, − 206 p.
3. Girardet, J., Pécheur J., Duranton L., Garnaud C. Campus cahier d'exercices 2. // CLE Internatinal, − Paris, − 2018, − 126 p.
4. http://gramm-fle.ulb.ac.be/95/ (consulté plusieurs fois au cours de l'année 2010)
5. http:// www.questy.fr

**T.F.Salimli**

**Grammatical Assignments used in the Study of the French Language as a Foreign Language**

***Summary***

The purpose and usefulness of using various assignments in the study of the French language as a foreign language in research is reflected. Here, as much as possible, starting from simple terms and moving on to more complex terms are given. Of course, the levels of the speakers must be taken into account when arranging the instructions. In the training of grammatical knowledge, the level of grammatical knowledge of the speakers in their native language must be kept attentive. There are differences between the grammar of the French language and the grammar of the Azerbaijani language. Keeping in mind the differences in the field of grammar, the learners can absorb the new language comparing it with their native one. Making comparative analysis in the analysis of foreign languages simplifies and accelerates the process of interpretation. Making grammatical analyzes allows the sentences to be translated correctly and the correct meaning to be captured.

***Key words:*** *grammar studies, listening to songs, multiple choice tasks, related tasks*

**Т.Ф.Салимли**

**Грамматические задания, используемые при изучении французского языка как иностранный**

***Резюме***

В исследовании отражены цель и полезность различных задач при обучении французскому языку как иностранному. Здесь их довольно много, начиная от простых задач и заканчивая более сложными типами задач. Разумеется, при составлении заданий необходимо учитывать уровни претендентов. При обучении грамматическим знаниям необходимо учитывать уровень грамматических знаний на родном языке обучающихся. Существуют различия между французской грамматикой и азербайджанской грамматикой. Учитывая эти различия в области грамматики, учащиеся овладевают иностранными языками аналогично родному языку. Сравнительный анализ при обучении иностранным языкам облегчает и ускоряет процесс обучения. Проведение грамматического анализа позволяет правильно перевести предложения и понять правильный смысл.

***Ключевые слова:*** *изучение грамматики, прослушивание песен, задачи с множественным выбором, связанные задачи*

*Rəyçi: filol.f.d. A.M.Ağakişiyeva*

*Redaksiyaya daxil olub: 15.05.2024*